Müşfiq Aqit oğlu QURBANOV
Bakı Avrasiya Universiteti, magistrant
mgurbanov1982@gmail.com,
Elman İbiş oğlu İBİŞOV
Elmi rəhbər: i.e.n., dosent
https://doi.org/10.30546/4.71.73001.2024.02.026

AZƏRBAYCANDA MÖVCUD BANK SİSTEMİNDƏ AUDİT FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanın bank sistemində audit işinin təşkili ilə bağlı çoxşaxəli problemlərin araşdırılması və həlli istiqamətində tövsiyələrin verilməsidir.

Tədqiqatın metodologiyası – Tədqiqat zamanı sistemli yanaşma, iqtisadi-statistik təhlil, məntiqi ümumiləşdirmə, müqayisəli təhlil və qruplaşdırma metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatda əldə edilən nəticələrin, həmçinin irəli sürülən tövsiyələrin reallaşdırılması ölkəmizin bank sistemində şəffaf korporativ idarəetmənin formalaşmasına və risklərin idarə edilməsinin daha effektiv nəticələr verməsinə, habelə müvafiq sahədə requlyativ çərçivənin təkmilləşdirilməsinə müsbət təsir edəcəkdir.

Tədqiqatın nəticələri – Tədqiqatın əsas müddəaları və irəli sürülmüş elmi nəticələr bank sektorunun praktiki göstəriciləri ilə əsaslandırılmışdır. Bank sektorunda audit xidmətinə aid inkişaf trendləri təhlil edilməklə, ölkə banklarında risklərin idarə edilməsi sisteminə təsiri araşdırılmış, tətbiq edilən yeni tələblərin üstünlükləri müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – bank sektorunda audit xidmətinin təşkilinin effektivliyinin artırılması istiqamətində auditin potensial imkanları təhlil edilərək qiymətləndirilmiş və banklarda auditin fəaliyyəti üzrə beynəlxalq təcrübə araşdırılaraq, müasir tələblər və yeniliklər öyrənilmişdir.

Açar sözlər: audit, bank, risklərin idarə edilməsi, daxili audit, kənar audit, maliyyə, hesabat.

Giriş

Bank sektoru müasir Azərbaycan iqtisadiyyatının təməl daşı olmaqla, maliyyə vasitəçiliyini, kapitalın bölüşdürülməsini və iqtisadi artımı asanlaşdırır. Bu baxımdan, maliyyə institutlarının fəaliyyətinin daxili nəzarətinin və normativ tələblərə uyğunluğunun müstəqil qiymətləndirilməsini təmin edən audit mühüm rol oynayır.

Məlum olduğu kimi, ölkəmizdə maliyyə sektorunun inkişaf etdiyi mövcud şəraitdə audit fəaliyyətinin rolu və əhəmiyyəti durmadan artır. Sahibkarlıq fəaliyyətinin bir növü olan auditor xidməti həm özü inkişaf edir, həm də bütövlükdə ölkədə sahibkarlığın inkişaf etdirilməsində, iqtisadi inkişafın perspektivlərinin müəyyənləşdirilməsində getdikcə daha böyük rol oynamağa başlayır [1, səh. 301]. Müasir iqtisadi inkişaf şəraitində maliyyə subyektlərinin (kredit təşkilatları, sığorta və investisiya şirkətləri) daxili strukturu və xarici əlaqələri çoxşaxəliliyi və mürəkkəbliyi ilə səciyyələnir. Xüsusilə, Azərbaycanda iqtisadi tərəqqi fonunda maliyyə sektorunun inkişafı üçün əlverişli mühitin yaranması ilə əlaqədar maliyyə subyektlərində, o cümlədən bank sektorunda keyfiyyətli audit xidmətinin təmin edilməsi şəffaflığa və maliyyə sabitliyinə nail olunması baxımından aktualdır.

Banklarda daxili auditin strukturu və fəaliyyət istiqamətləri

Banklar maliyyə sistemində əsas hərəkətverici gücə malikdir. Bu nöqteyi-nəzərdən, bank nəzarəti orqanının fəaliyyətinin əsas istiqamətlərindən biri mövcud və potensial risklərin maliyyə sektoruna, o cümlədən banklara neqativ təsirlərinin minimallaşdırılmasına və maliyyə-bank sisteminə etimadın qorunmasına yönəlməlidir. Azərbaycan təcrübəsinə nəzər yetirsək, ölkədə bank-əsaslı maliyyələşmə modelinin mövcud olduğunu görərik. İqtisadiyyatın maliyyələşməsində bank siste-

minin aparıcı rolu qalmaqdadır. Bütövlükdə, 2023-cü ilin sonuna ölkənin maliyyə sisteminin aktivləri 60.8 mlrd. manat təşkil etmişdir ki, bu da ÜDM-in 51%-nə (qeyri-neft ÜDM-inin 81%-nə) bərabərdir. Kredit təşkilatları (banklar və BOKT-lar) cəmi maliyyə sektorunun aktivlərinin 96.6%-nə (58.8 mlrd. manat) sahibdir [2, səh. 1].

Bütövlükdə, Azərbaycan bank sektoruna nəzər salsaq, əvvəlki illərlə müqayisədə 2023-cü il üzrə müsbət dinamika müşahidə edilmişdir. Belə ki, 2023-cü ildə əvvəlki illə müqayisədə təkcə bank sektorunun aktivləri 4,5% (2,1 mlrd. manat) artaraq 49,2 mlrd. manat təşkil etmişdir (qeyri-neft ÜDM-inin 63,3%-i) [3, səh. 2].

Cədvəl 1

Bank sisteminin inkişaf dinamikası və dayanıqlığı

Əsas göstəricilər	2019	2020	2021	2022	2023
Aktivlər, mln. manat	32 723	32 055	38 462	47 055	49 178
artım tempi, faizlə	10.9	-6.1	20	22.3	4.5
Kapital, mln. manat*	4 583	4 669	4 969	5 622	6 063
artım tempi, faizlə	12.5	1.7	5.7	13.1	7.8

**balans kapitalı*

Mənbə: *Mərkəzi Bankın rəsmi saytından (www.cbar.az) istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.*

Bankın daxili audit xidmətinin əməkdaşları bankın risklərinin müəyyən edilməsində, qiymətləndirilməsində və qarşısının alınması sahəsində önəmli rol oynayırlar. Bu baxımdan, daxili audit funksiyası bankın inkişaf dinamikasını mütəmadi nəzarətdə saxlamaqla, neqativ trendləri araşdırmalı, potensial riskləri təhlil etməli və bankın inkişafı üçün yaranan təhdidlərin aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verməlidir. Banklarda risklərin idarə edilməsi və mitiqasiya tədbirlərinin vaxtında və keyfiyyətlə icrası banklarda audit funksiyasının məsuliyyətini artırır. Tənzimləmə mühiti dinamik olduğundan daxili auditorlar banka qanun və qaydalardakı dəyişikliklərdən xəbərdar olmağa və öz təcrübələrini müvafiq qaydada tənzimləməyə dəstək verir. Bu nöqteyi-nəzərdən bankda daxili nəzarət vasitələrinin formalaşdırılması xüsusi əhəmiyyətə malikdir [4, səh. 86]. Banklarda audit xidmətlərinin Mərkəzi Bankın tapşırıq və tövsiyələrinin icrasına nəzarəti vacib əhəmiyyət kəsb edir.

Bank nəzarəti üzrə Bazel Komitəsinin sənədlərində bank nəzarəti orqanlarına qarşılıqlı maraq doğuran məsələlər üzrə bankların daxili audit xidmətləri ilə sıx əlaqə saxlamaq tövsiyə edilir. Eyni zamanda, bank nəzarəti orqanı belə əlaqəni qurarkən bankın daxili audit xidmətinin fəaliyyətinin təşkilini, o cümlədən onun statusunu və səlahiyyətlərini diqqətlə araşdırmalıdır. Bank nəzarəti orqanı ilə bankın daxili audit xidməti arasında qarşılıqlı fəaliyyət çərçivəsində hər iki tərəf bu qarşılıqlı əlaqənin onların müstəqilliyinə və statusuna mənfi təsir göstərmə ehtimalını istisna etməlidir, çünki tərəflərin vəzifə və məsuliyyətləri əhəmiyyətli dərəcədə fərqlənir. Bank nəzarəti orqanı daxili audit xidmətinin fəaliyyətini yoxlamalar vasitəsilə də daima və tənqidi formada qiymətləndirməlidir. Bank nəzarəti orqanı ilə bankın daxili audit xidməti arasında münasibətlər konstruktiv və şəffaf olmalıdır. Bir qayda olaraq, belə münasibətlərin yaradılmasının təşəbbüskarı kimi bank nəzarəti orqanı çıxış edir.

Bank nəzarət orqanı bankın daxili audit funksiyası ilə daimi əlaqədə olmalıdır: (1) hər iki tərəfin müəyyən etdiyi risk sahələrini müzakirə etmək üçün; (2) bankın risklərin idarə edilməsi tədbirlərini başa düşmək üçün; (3) aşkar edilmiş zəif cəhətlərin aradan qaldırılması məqsədilə bankların fəaliyyətinə nəzarət üçün [5, səh. 9].

Bank nəzarəti üzrə Bazel Komitəsinin tələblərinə əsasən daxili audit risklərin idarə edilməsinin aşağıdakı aspektlərini əhatə etməlidir [5, səh. 14]:

- bazar, kredit, likvidlik, faiz dərəcəsi, əməliyyat və hüquqi risklər daxil olmaqla risklərin idarə edilməsi funksiyasının təşkili;

- risk iştahının qiymətləndirilməsi, risklərin idarə edilməsi funksiyası tərəfindən qəbul edilən məsələlər və qərarların eskalasiyası və hesabatlılığı;
- bankın fəaliyyəti nəticəsində yaranan bütün risklərin müəyyən edilməsi, ölçülməsi, qiymətləndirilməsi, nəzarət edilməsi, cavablandırılması və hesabatların verilməsi üçün risklərin idarə edilməsi sistemlərinin və proseslərinin adekvatlığı;
- istifadə olunan məlumatların dəqiqliyi, etibarlılığı və tamlığı daxil olmaqla, risklərin idarə edilməsi üzrə informasiya sistemlərinin bütövlüyü;
- risk modellərinin təsdiqi və saxlanması, o cümlədən bu cür modellərdə istifadə olunan məlumat mənbələrinin ardıcıllığının, vaxtlılığının, müstəqilliyinin və etibarlılığının yoxlanılması.

Daxili auditorlar çirkli pulların yuyulması fəaliyyətlərinin müəyyən edilməsi və qarşısının alınması və müştərilərin lazımi müayinəsinin təmin edilməsi üçün bankın proseslərini nəzərdən keçirirlər. Məlumatların məxfiliyinin artan əhəmiyyəti ilə auditorlar müştəri və işçi məlumatlarının təhlükəsiz şəkildə idarə olunmasını təmin etmək üçün bankın məlumatlarının qorunmasına dair qanunlara və qaydalara uyğunluğunu qiymətləndirirlər. Daxili audit funksiyaları dəyişən risklər və tənzimləmə mühitləri ilə əlaqədar daim inkişaf etməlidir. Daxili audit prosesinin özünün mütəmadi olaraq qiymətləndirilməsi onun keyfiyyətliliyini, effektivliyini və aktuallığını təmin etməyə xidmət edir [6, səh. 26].

Azərbaycan bank sektorunda daxili audit funksiyası mütərəqqi beynəlxalq təcrübə nəzərə alınaraq risklərin idarə edilməsi sisteminin üçüncü müdafiə xətti kimi müəyyən edilmişdir. O, bankın və onun nüfuzunun qorunması üçün Müşahidə Şurasına və İdarə Heyətinə bankın daxili nəzarət və risklərin idarə edilməsi sisteminin keyfiyyəti və effektivliyi ilə bağlı müstəqil dəstək xidmətini təmin edən vacib element kimi çıxış edir.

Qeyd edək ki, üç müdafiə xətti konsepsiyası risklərin idarə edilməsi sistemində və ümumi idarəetmədə geniş şəkildə qəbul edilmiş çərçivədir. Bu çərçivədə daxili audit funksiyası beynəlxalq standartların tələblərinə uyğun olaraq üçüncü müdafiə xətti hesab edilir, bankın daxili nəzarəti və risklərin idarə edilməsi sisteminin effektivliyinin təmin edilməsində həlledici rol oynayır.


Ümumiyyətlə, üç müdafiə xətti banklarda risklərin idarə edilməsi sisteminin strukturunu təşkil edir. Bu struktur bankda onun əməliyyatlarının növü, həcmi, fəaliyyətinin xüsusiyyətləri və mühiti, mürəkkəbliyi və üzləşdiyi risklər nəzərə alınmaqla yaradılır. Banklarda üç müdafiə xəttinin strukturu aşağıdakı qaydada formalaşdırılır [7, səh. 6]:

- birinci müdafiə xətti: fəaliyyətləri banka birbaşa risklər yaradan və məhsul, xidmət, fəaliyyət, proses və sistemlər üzrə risklərin ilkin mərhələdə müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə edilməsi, hesabatlılığı və monitorinqinə məsul struktur bölmələr, o cümlədən bankın filial və şöbələri daxildir;
- ikinci müdafiə xətti: bankda risklərin idarə edilməsi və komplayns funksiyalarını həyata keçirən struktur bölmələr daxildir;
- üçüncü müdafiə xətti: birinci və ikinci müdafiə xəttini qiymətləndirmək səlahiyyəti olan bankın daxili audit funksiyasını həyata keçirən struktur bölməsi daxildir.

Banklarda daxili audit xidmətinin strukturu bankın fəaliyyətinin həcmindən və mürəkkəblik dərəsindən asılı olaraq formalaşdırılır. Banklarda daxili audit fəaliyyətinin həyata keçirilməsinə birbaşa cavabdeh struktur Audit Komitəsi və daxili audit departamentidir. Daxili audit departamenti bankın həcmindən asılı olaraq bir neçə daxili şöbələrdən ibarət ola bilər və ya kiçik həcmli banklarda daxili audit şöbəsi/bölməsi yaradıla bilər. Daxili audit fəaliyyətinə məsul struktur bölmə (departament, şöbə və ya bölmə) bankın Audit Komitəsinin təsdiq etdiyi iş planına uyğun olaraq daxili auditi həyata keçirir.

Daxili audit üzrə struktur bölmə audit fəaliyyətini həyata keçirərkən bu sahədə qüvvədə olan qanunvericilik aktlarına və normativ xarakterli sənədlərə əməl etməlidir:

- “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu, “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu



Qrafik 1. Üç müdafiə xətti

Mənbə: *Müəllif tərəfindən hazırlanmışdır.*

- Azərbaycan Mərkəzi Bankının “Banklarda korporativ idarəetmə standartları” və digər normativ-hüquqi sənədləri
- Bankın daxili audit xidmətinin əsasnaməsi
- Daxili Auditorlar İnstitutu tərəfindən müəyyən edilmiş peşə standartları, prinsiplər, təlimatlar və qaydalar

Müasir bankçılıq ənənələrinin yüksək sürətlə inkifaşı və yeni çağırışlar daxili auditorlara qarşı tələbləri artırır. Daxili audit bölməsində təmsil olunan auditorlar və mütəxəssislər yüksək texniki biliklərə (xüsusilə İT, ödəniş sistemləri və xidmətləri, modelləşdirmə və s. sahələr üzrə) və təcrübəyə malik olmalıdır. Xüsusi hallarda, texniki bilik və bacarıq tələb edən sahələr üzrə daxili audit departamenti kənar xidmətlərdən (bankın kənar auditoru istisna) də istifadə edə bilər. Bu yolla aparılan audit işinin keyfiyyəti və effektivliyinə daxili audit departamenti özü məsuliyyət daşıyır. Daxili audit işində daim obyektivliyin qorunmasını təmin etmək və yarana biləcək hər hansı subyektiv yanaşma ehtimallarını istisna etmək üçün daxili audit xidmətinin daxilində işçilərin mütəmadi rotasiyası aparılır. Rotasiya ilə bağlı qaydalar bankın daxili audit üzrə siyasəti ilə müəyyən edilir.

Azərbaycan Respublikası Mərkəzi Bankının “Banklarda korporativ idarəetmə standartları”na əsasən daxili audit xidmətinin fəaliyyət istiqamətləri ilə bağlı minimum sahələr müəyyən edilmişdir. Bütövlükdə, banklarda daxili audit müxtəlif fəaliyyətlərin qaydalara, siyasətlərə və qabaqcıl təcrübələrə uyğunluğunu təmin etmək üçün onların sistematik və müstəqil yoxlanılmasını nəzərdə tutur. Əsas məqsəd rəhbərliyə və maraqlı tərəflərə daxili nəzarət, risklərin idarə edilməsi və korporativ idarəetmə proseslərinin effektivliyinə inamın təmin edilməsidir [8, səh. 6].

Daxili audit yoxlamasının yekunlarına əsasən nəticələr və tövsiyələr barədə daxili audit hesabatı hazırlanır. Hesabatda audit tapıntıları göstərilir və dəqiq faktlarla əsaslandırılır. Audit hesabatı yoxlanılan sahə üzrə güclü, zəif və təkmilləşdirilməli sahələri əks etdirməlidir. Daxili audit departamenti audit hesabatı ilə bağlı İdarə Heyəti tərəfindən görülən tədbirlərin nəticələrini izləməli və ildə azı iki dəfə tövsiyələrin icra vəziyyəti barədə bankın Audit Komitəsinə və Müşahidə Şurasına hesabat verməlidir. Habelə, müəyyən edilmiş problemlərin aradan qaldırılması üçün düzəldici tədbirlərin görülməsini təmin etməlidir.

Banklarda kənar audit fəaliyyətinə dair tələblər


Bankların maliyyə əməliyyatlarının şəffaflığının, dəqiqliyinin və uyğunluğunun təmin edilməsində kənar audit rolu mühüm əhəmiyyət daşıyır. Banklarda kənar audit fəaliyyəti maraqlı tərəflərə maliyyə məlumatlarının etibarlılığı, daxili nəzarətin effektivliyi və tənzimləyici tələblərə uyğunluğu ilə bağlı əminlik təmin etmək və bununla da bank sisteminə inamı artırmaq məqsədi

daşıyır. Azərbaycanın bank sektorunda kənar auditə dair tələblər “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) “Bankların və xarici bankların yerli filiallarının kənar auditinin aparılmasına dair tələblər haqqında Qaydalar”ı, Auditorlar Palatasının müvafiq normativ xarakterli sənədləri və Beynəlxalq Audit Standartları (BAS) ilə tənzimlənir.

Azərbaycan Respublikasında kənar audit fəaliyyəti ilə Auditorlar Palatası tərəfindən verilən lisenziya əsasında ölkə ərazisində auditor xidmətini göstərmək hüququ əldə edən fiziki şəxslər və öz nizamnaməsində yeganə fəaliyət sahəsi kimi bu xidmət növünü göstərən hüquqi şəxslər məşğul ola bilər. Ölkə qanunverciliyinə əsasən kənar audit fəaliyyəti ilə məşğul olan fiziki şəxsrlər sərbəst auditor, hüquqi şəxslər isə auditor təşkilatı kimi təsnifləşdirilir. Auditorlar Palatası tərəfindən dövlət qeydiyyatına alınan sərbəst auditorlar və auditor təşkilatlarının lisenziya müddəti 5 il müəyyən edilir [9, səh. 4].

Kənar auditorlar bankların əməliyyatlarının, maliyyə hesabatlarının və risklərin idarə edilməsi təcrübələrinin müvafiq tənzimləyici orqan (AMB) tərəfindən müəyyən edilmiş qaydalara və beynəlxalq standartların tələblərinə uyğun olmasını təmin edirlər [10, səh. 3]. Kənar auditin apardığı yoxlamalardan biri kimi defolt riskinin qarşısını almaq üçün kredit əməliyyatlarının auditini qeyd edə bilərik. Bankda kredit əməliyyatlarının auditi tənzimləyici tələblərə, risklərin idarə edilməsi praktikasına və daxili siyasətlərə riayət olunmasını təmin etmək üçün kredit fəaliyyəti ilə bağlı proseslərin və nəzarətin qiymətləndirilməsini əhatə edir.

Kredit prosedurlarının düzgün icrasının təmin edilməsi bankların kredit qoyuluşuna adekvat təsir edən amillərdəndir. Bu istiqamətdə əvvəlki illərlə müqayisədə Azərbaycanın bank sistemində ümumi tendensiya müsbət olmuşdur. Belə ki, 2023-cü il ərzində bank sektorunun maliyyə vasitəçiliyinin genişləndirilməsi və kredit əlçatanlığının artırılması istiqamətində görülmüş tədbirlər nəticəsində kredit qoyuluşlarında aktivlik yüksəlmişdir. 2023-cü ildə bankların kredit portfeli 18,3% və ya 3,6 mlrd. manat artmışdır. 2023-cü ildə bankların istehlak portfeli 20,6%, ipoteka portfeli 21,6%, biznes portfeli isə 16,2% artmışdır. BOKT-lar daxil olmaqla ümumi kredit qoyuluşlarının qalıq məbləği 18.8% və ya 3,8 mlrd. manat artaraq 23,9 mlrd. manatı üstələmişdir [11, səh. 4].




Qrafik 2. Kredit qoyuluşlarının dəyişimi, *faizlə* (banklar və BOKT)

Mənbə: *Mərkəzi Bankın rəsmi saytından (www.cbar.az) istifadə etməklə müəllif tərəfindən hazırlanmışdır.*

Kredit qoyuluşu ilə bağlı 2018-ci ildən 2023-cü ilədək olan göstəriciləri müqayisə etdikdə 2020-ci ildə kredit qoyuluşunun mənfi tendensiya üzrə getdiyini müşahidə edirik. Bu hal, 2020-ci ildə COVİD-19 pandemiyası ilə əlaqədar olmuşdur. Məlum olduğu kimi, pandemiya dövründə iqtisadi fəallığın aşağı düşməsi, pandemiya ilə əlaqədar ölkədə tətbiq edilən məhdudiyyətlər bankların kreditləşmə fəaliyyətinə mənfi təsir göstərmişdir. Lakin 2021-ci ildən başlayaraq, sektor post-pandemiya dövrünə qədəm qoymuş, kredit qoyuluşu əhəmiyyətli səviyyədə artmış və iqtisadi aktivlik bərpa edilmişdir.

Auditor tərəfindən kredit riskinin idarə edilməsi sisteminin və bu sahədə tənzimləyici-normativ bazanın qiymətləndirilməsi bankın qeyri-işlək kredit portfelinin həcminin minimuma endirilməsinə xidmət edir. Bu baxımdan, bankların qarşısında duran əsas vəzifələrdən biri sağlam kredit portfelinin təmin edilməsindən ibarətdir. Azərbaycan bank sektorunun qeyri-işlək kredit portfeli üzrə son 3 (üç) ilin göstəricilərinə nəzər salsaq, bu istiqamətdə müsbət dinamika müşahidə edilməkdədir [12, səh. 6].



Qrafik 3. Qeyri-işlək kredit (QİK) portfelinin ümumi kredit portfelinə nisbəti

Mənbə: *Mərkəzi Bankın “Bankların qeyri-işlək kreditlərinin strukturu barədə məlumat”ı (www.cbar.az) əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi, bankların qeyri-işlək kredit porfelinin həcmi 2021-ci ilin 31 dekabrı ilə müqayisədə 2023-cü ilin sonuna 1.9 faiz bəndi azalaraq, 4.5%-dən 2.6%-ə enmişdir. Bu müsbət trendlər Mərkəzi Bankın tənzimləyici-nəzarət funksiyalarının səmərəliliyi ilə yanaşı, həm bankların risklərin idarə edilməsinə həssas yanaşmasının, həm də audit prosedurlarının effektivliyinin nəticəsidir. Belə ki, bankda kredit əməliyyatlarının auditinin uğurunu təmin etmək üçün auditorlar tərəfindən əsas maraqlı tərəflərlə, o cümlədən idarəetmə və tənzimləyici orqanlarla səmərəli kommunikasiya və əməkdaşlıq vacibdir.

Nəticə

Auditin nəticələri rəsmi audit hesabatında ümumiləşdirilir. Audit zamanı aşkar edilmiş səhvlər, pozuntular və ya nəzarət çatışmazlıqları aydın şəkildə qeyd olunur. Aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması və hesabat proseslərinin və nəzarətin təkmilləşdirilməsi məqsədilə düzəldici tədbirlərin görülməsi üçün tövsiyələr verilir. Audit nəticələri və tövsiyələri bank rəhbərliyi ilə müzakirə edilməlidir ki, onlar nəticələri başa düşsünlər və müvafiq tədbirlər görməyə hazır olsunlar. Rəhbərlik tərəfindən qaldırılan hər hansı sual və ya narahatlıqlar auditor tərəfindən həll edilməli və aydınlıq gətirilməlidir.

Kənar auditin tövsiyələrinin icrasına daxili auditor nəzarət edir. Proses daxili auditor tərəfindən izlənilir və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində irəliləyişlərə nəzarət edilir. Düzəliş tədbirlərinin vaxtında icra edilməsi və hesabat proseslərində və nəzarətdə olan hər hansı zəifliklərin effektiv şəkildə aradan qaldırılması təmin edilir.

Auditorlar bank sektorunun müvafiq qanun və qaydalara, beynəlxalq standartlara uyğunluğunu təmin etmək üçün bankın əməliyyatlarını nəzərdən keçirirlər. Bu baxış bankın əməliyyatlarının qanuni və normativ tələblərə uyğun aparılmasını təmin edir, bankın maliyyə itkisi, likvidlik, hüquqi və nüfuz risklərinin azaldılmasına kömək edir.

Bütövlükdə, daxili audit fəaliyyətində aydın və effektiv ünsiyyət çox vacibdir. Auditorlar öz tapıntılarını, nəticələrini və tövsiyələrini bankın İdarə Heyəti və Müşahidə Şurasına çatdıraraq,

düzəldici tədbirlərin vacibliyinin başa düşülməsini və həyata keçirilməsini təmin etmiş olurlar. Banklarda kənar audit fəaliyyəti maliyyə hesabatlarının və daxili nəzarətin müstəqil qiymətləndirilməsini əhatə edir. Kənar baxışı təmin etməklə kənar auditorlar risklərin idarə edilməsinə töhfə verir və bank sektorunda şəffaflığı təşviq edir.

Azərbaycan qanunvericiliyinə əsasən banklar öz kənar auditorlarını seçmək azadlığına malikdirlər, lakin bu seçim audit prosesinin bütövlüyünü və müstəqilliyini təmin etmək üçün müəyyən qaydalara və tənzimləmələrə tabedir. Belə ki, auditorun seçimi zamanı Bankın Audit Komitəsi tərəfindən müəyyən edilmiş tələblər və bank nəzarəti orqanının müvafiq tənzimləyici çərçivələri nəzərə alınmalıdır. Eyni zamanda, seçilmiş auditor MHBS üzrə biliklərə, bank sektorunun və digər maliyyə institutlarının auditi üzrə təcrübəyə sahib olmalıdır.

ƏDƏBİYYAT

1. Abbasov, İ.M. Audit (dərslik) /İ.M.Abbasov. - Bakı: Bakı Biznes Universiteti, - 2007.- 528 s.
2. Əsas makroiqtisadi göstəricilər, https://cbar.az/page-41/macroeconomic-indicators
3. Bank sektorunun icmalı, https://cbar.az/page-188/credit-institutions
4. Bayramov, Q.S. Müəssisələrin idarəetmə sistemində daxili auditin rolu. / – Bakı: Nağıl evi, – 2013., 196 səh.
5. The internal audit function in banks - Consultative document, Basel Committee on Banking Supervision, 2012, URL:https://www.bis.org/publ/bcbs210.pdf
6. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, 30 dekabr 2022-ci ildə qəbul edilmişdir (5 dekabr 2023-cü il tarixində olan əlavə və dəyişikliklər). URL: https://e-qanun.az/framework/53369
7. “THE IIA’S THREE LINES MODEL”, 2020. URL:https://www.theiia.org/globalassets/documents/resources/the-iias-three-lines-model-an-update-of-the-three-lines-of-defense-july-2020/three-lines-model-updated-english.pdf
8. Azərbaycan Mərkəzi Bankının “Banklarda korporativ idarəetmə Standartları”, 28 avqust 2023-cü ildə təsdiq edilmişdir. URL: https://e-qanun.az/framework/55125
9. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu // 16 sentyabr 1994-cü ildə qəbul edilmişdir (26 dekabr 2023-cü il tarixində olan əlavə və dəyişikliklər). URL: https://e-qanun.az/framework/9236
10. Azərbaycan Mərkəzi Bankının “Bankların və xarici bankların yerli filiallarının kənar auditinin aparılmasına dair tələblər haqqında Qaydalar”ı, 28 fevral 2007-ci ildə təsdiq edilmişdir. URL: https://e-qanun.az/framework/15080
11. Bankların kredit portfelinin strukturu barədə məlumat, https://cbar.az/page-188/credit-institutions
12. Bankların qeyri-işlək kreditlərinin strukturu barədə məlumat, https://cbar.az/page-188/credit-institutions

Мушфиг Агит оглы Гурбанов
магистрант, Бакинский Евразийский Университет,
mgurbanov1982@gmail.com,
Эльман Ибиш оглы Ибишов
Научный руководитель к.е.н., доцент

Анализ и оценка аудиторской деятельности в действующей банковской системе Азербайджана

Резюме

Целью исследования является исследование и предоставление рекомендаций по решению многоплановых проблем, связанных с организацией аудиторской работы в банковской системе Азербайджана.

Методология исследования – В ходе исследования использовались системный подход, экономико-статистический анализ, логическое обобщение, сравнительный анализ и методы группировки.

Значимость применения исследования – реализация полученных в ходе исследования результатов, а также выдвинутых рекомендаций окажет положительное влияние на формирование прозрачного корпоративного управления в банковской системе нашей страны и более эффективных результатов управления рисками, а также по совершенствованию нормативной базы в соответствующей сфере.

Результаты исследования – Основные положения исследования и предлагаемые научные выводы обоснованы практическими показателями банковского сектора. Путем анализа тенденций развития аудиторской службы в банковском секторе исследовано влияние на систему управления рисками в банках страны, определены преимущества новых требований.

Оригинальность и научная новизна исследования – в целях повышения эффективности организации аудиторских услуг в банковской сфере проанализированы и оценены потенциальные возможности аудита, а также исследован международный опыт аудиторской деятельности в банках. изучены современные требования и инновации.

Ключевые слова: аудит, банк, управление рисками, внутренний аудит, внешний аудит, финансы, отчетность.

Mushfig Agit Gurbanov
Master, Baku Eurasian University,
mgurbanov1982@gmail.com,
Elman Ibish Ibishov
Scientific supervisor: Doctor of philosophy in economics, assistant professor

Analysis and assessment of audit activity in the current banking system in Azerbaijan

Summary

The purpose of the study is to investigate and provide recommendations for solving multifaceted problems related to the organization of audit work in the banking system of Azerbaijan.

Methodology of the research – Systematic approach, economic-statistical analysis, logical generalization, comparative analysis and grouping methods were used during the research.

The applied importance of the research – the realization of the results obtained in the research, as well as the recommendations put forward, will have a positive effect on the formation of transparent corporate governance in the banking system of our country and more effective results of risk management, as well as on the improvement of the regulatory framework in the relevant field.

Findings of the study – The main provisions of the study and the proposed scientific conclusions are justified by the practical indicators of the banking sector. By analyzing the development trends related to the audit service in the banking sector, the impact on the risk management system in the country's banks was investigated, and the advantages of the new requirements were determined.

The originality and scientific novelty of the research – in order to increase the effectiveness of the organization of audit services in the banking sector, the potential opportunities of the audit were analyzed and assessed, and the international experience of the audit activity in banks was investigated, modern requirements and innovations were studied.

Key words: audit, bank, risk management, internal audit, external audit, finance, reporting.